**Müsabiqəyə təqdim olunan iddia sənədlərinin qiymətləndirilməsi meyarları:**

Müsabiqəyə təqdim olunan iddia sənədləri aşağıdakı meyarlar üzrə qiymətləndiriləcək:

1. 2021-ci ildə dərc olunmuş elmi məqalələrinin ümumi sayı 5-dən az olmamalı, o cümlədən:
   - **Təbiət elmləri və dəqiq elmlər** üzrə ən azı 3 məqalə Web of Science;
   - **Humanitar və ictimai elmlər** üzrə ən azı 1 məqalə Web of Science və ya Scopus, 1 məqalə isə ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO və ya EconLit

   beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan jurnallarda dərc olunmalıdır (*əsli və/və ya surəti, PDF formatda, DOI və internet linki göstərilməklə müsabiqəyə təqdim olunmalıdır*);

   1.1. beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (*bazalarına*) daxil olan jurnallarda dərc olunan məqalələrin qiymətləndirilməsi (**MQ**) qaydası:

$$MQ=\frac{X\text{ bal}}{\text{Müəlliflərin sayı}}$$

   - Web of Science bazasına daxil olan jurnallarda:
     - Q1 kvartil kateqoriyalı jurnallar üçün – **X = 60 bal;**
     - Q2 kvartil kateqoriyalı jurnallar üçün – **X = 50 bal;**
     - Q3 kvartil kateqoriyalı jurnallar üçün – **X = 40 bal;**
     - Q4 kvartil kateqoriyalı jurnallar üçün – **X = 30 bal;**
     - Kateqoriyası olmayan jurnallar üçün – **X = 20 bal;**
   - SCOPUS bazasına daxil olan jurnallar üçün – **X = 40 bal;**
   - ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO və ya EconLit bazalarına daxil olan jurnallar üçün – **X = 20 bal.**

   1.2. Digər jurnallarda:

   **– məqalə sayından asılı olmayaraq ümumilikdə 20 bal;**

2. 2021-ci ildə dərc olunmuş monoqrafiya, atlas və icmallar (*əsli və/və ya surəti, PDF formatda*):

   2.1. Springer, Wiley, Oxford University Press, Cambridge University Press, American Institute of Physics, Taylor & Francis Ltd, Academic press, IOP Publishing Ltd, International Thomson Publishing, IntechOpen və s. kimi nüfuzlu beynəlxalq nəşriyyatlarda nəşr edilmiş monoqrafiya, atlas və icmalların qiymətləndirilməsi (**BQ**) qaydası:

$$BQ=\frac{100\text{ bal}}{\text{Müəlliflərin sayı}}$$

   2.2. Azərbaycanda nəşr edilmiş və ISBN-ə malik monoqrafiya, atlas və icmalların qiymətləndirilməsi (**AQ**) qaydası:

$$AQ=\frac{50\text{ bal}}{\text{Müəlliflərin sayı}}$$

3. 2021-cı ildə alınmış ixtira və patentlər (*surəti*):
   3.1. Beynəlxalq səviyyəli ixtira və patentlərin qiymətləndirilməsi (**BPQ**) qaydası:

$$BPQ=\frac{100\ bal}{Müəlliflərin\ sayı}$$

   3.2. Ölkə və Avrasiya səviyyəli ixtira və patentlərin qiymətləndirilməsi (**ÖPQ**) qaydası:

$$ÖPQ=\frac{50\ bal}{Müəlliflərin\ sayı}$$

4. Elmi işlərə 2021-ci ildə olunan istinadlar (*müəllif(lər)in özünə olunan istinadı istisna olmaqla, H-indeksi, SCOPUS, Web of Science, Google Scholar üzrə statistika (linklər göstərilməklə)*):
   - İstinadların qiymətləndirilməsi (**İ**) qaydası:

$$İ=\frac{X\ bal}{Müəlliflərin\ sayı}$$

     - Web of Science üzrə – **X = 20 bal;**
     - SCOPUS üzrə – **X = 15 bal;**
     - Google Scholar üzrə – **X = 5 bal**.

**Qeyd:** Təbiət elmləri və dəqiq elmlər üzrə müsabiqədə iştirak edənlərin **İ** (istinadların qiymətləndirilməsi) balı **Web of Science;**
Humanitar və ictimai elmlər üzrə müsabiqədə iştirak edənlərin **İ** (istinadların qiymətləndirilməsi) balı isə **Web of Science, SCOPUS və ya Google Scholar** üzrə hesablanır.

5. Respublika, regional və beynəlxalq səviyyəli qrantlar üzrə işlər (2021-ci ildə yerinə yetirilmiş, konkret göstərilməklə):
   5.1. Beynəlxalq səviyyəli qrantların qiymətləndirilməsi (**BQQ**) qaydası:

$$BQQ=\frac{100\ bal}{Müəlliflərin\ sayı}$$

   5.2. Respublika və regional səviyyəli qrantların qiymətləndirilməsi (**RQQ**) qaydası:

$$BQQ=\frac{50\ bal}{Müəlliflərin\ sayı}$$

**Müsabiqənin keçirilmə müddəti:**

1. Müsabiqədə iştirak etmək üçün müvafiq sənədlər və digər müşayiətedici materiallar 2022-ci il 16 fevral tarixindən başlayaraq elektron formada və ya kağız şəklində qəbul olunur;
2. Müsabiqədə iştirak etmək üçün müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix 2022-ci il 15 mart saat 17:00-dır.

**Müsabiqəyə sənədlərin təqdim olunması**:

1. İddiaçılar müsabiqədə iştirakla bağlı hüquqi sənədləri və digər müşayiətedici materialları ("Müsabiqənin meyarları" bölməsində göstərilmiş materiallar elektron formada) elm-innovasiyalar@bsu.edu.az ünvanına təqdim etməlidirlər.
2. Müsabiqədə yalnız BDU-nun əməkdaşları **fərdi şəkildə** iştirak edə bilərlər.
3. Müsabiqəyə təqdim olunan elmi iş (məqalə və s.) və digərləri (ixtira, patent) müəlliflər qrupu tərəfindən yerinə yetirilmişdirsə, Azərbaycan vətəndaşı olan və xarici həm-müəlliflərin müsabiqənin şərtləri və bu müsabiqədə iştirak haqqında tam məlumatlandırılmasına elmi işi müsabiqəyə təqdim edən iddiaçı məsuliyyət daşıyır.
4. Bu müsabiqə çərçivəsində mükafatlandırılmış iddiaçı cari ildə BDU üzrə elan ediləcək digər analoji müsabiqələrdə iştirak edə bilməz.

**Sənədlərin və digər müşayiətedici materialların düzgünlüyünə məsuliyyəti təqdim edən iddiaçı daşıyır. Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan sənədlər müsabiqənin texniki ekspertiza mərhələsindən keçmir və əsas ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə kağız formada təqdim edilmiş sənədlər və elektron daşıyıcılar bir qayda olaraq geri qaytarılmır.**

**Əlavə məlumat üçün:**

Tel: (+994 12) 538 60 63
E-mail: elm-innovasiyalar@bsu.edu.az